# “A grammar of contemporary Azerbaijani” dərs vəsaitinin təqdimatı



**Sentyabrın 20-də Bakı Kitab Mərkəzində “A grammar of contemporary Azerbaijani” (“Müasir Azərbaycan dilinin qrammatikası”) adlı dərs vəsaitinin təqdimatı keçirilib.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva, eləcə də Azərbaycanın tanınmış elm, mədəniyyət və ictimaiyyət xadimləri iştirak ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə nəşr edilmiş kitabın müəllifləri dilçi-alim Səbinə Əliyeva və Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribovadır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov müəlliflərin bu işə 5 ilə yaxındır başladıqlarını diqqətə çatdırıb.

Xaricdə yaşayan həmvətənlərimizin Azərbaycan dilinin qorunub saxlanılmasını, onun inkişaf etdirilməsini əsas prioritet kimi qəbul etdiklərini vurğulayan komitə sədri Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın tapşırığı ilə xaricdə “Azərbaycan evlərinin” təsis olunduğunu deyib: “Onların nəzdində şənbə-bazar məktəbləri təşkil olunub ki, bizim xaricdə böyüyən uşaqlarımız və gənclərimiz Azərbaycan dilinin mənimsənilməsi üçün bu imkanlardan istifadə etsinlər”.




Təqdimat mərasimində çıxış edən dilçi-alim Səbinə Əliyeva Azərbaycan dili istiqamətində görülən hər bir işin onun üçün Vətənə xidmət olduğunu deyib.

Azərbaycan Dillər Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru Jalə Qəribova belə bir dərsliyə böyük ehtiyac olduğunu söyləyib. “Biz bir neçə ildir ki, xarici tələbələrə Azərbaycan dilini tədris edirik. Həmin prosesdə Azərbaycan dilinin sistemli qrammatikasına dair dərsliyə böyük ehtiyac olduğunu görürdük və biz bunun üzərində çalışmağa başlayaraq, bu kitabı ərsəyə gətirdik”, – deyə prorektor qeyd edib.

Kitabın redaktoru və Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla nəşrin əhəmiyyətini vurğulayaraq, bu gün universitetə bir çox ölkələrdən gələn tələbələrin Azərbaycan dilini öyrənmək üçün çox həvəsli olduqlarını diqqətə çatdırıb.

Dövlət Dil Komissiyası yanında Monitorinq Mərkəzinin direktoru Sevinc Əliyeva bu dərsliyin gələcəkdə Azərbaycan dilini öyrənən hər kəs üçün zəngin bir ədəbiyyata çevriləcəyini vurğulayıb. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, akademik Rafael Hüseynov Azərbaycan dilinə həsr olunan hər bir kitabın diqqətəlayiq olduğunu qeyd edib.

Tədbir bədii hissə ilə davam edib.

**XQ**

Xalq qəzeti .- 2024.- 21 sentyabr (№ 206).- S.8.